# Miliça Peyanoviç-Durisiç: COP29 yeni biologiya, İKT və süni intellekt sahələrinin geniş müzakirə ediləcəyi məkan olmalıdır

Biz hazırda elm, texnologiya və innovasiyaların inqilabi dəyişikliklərinin yaratdığı inanılmaz zamanda yaşayırıq. Yeni biologiya, İKT və süni intellektin fövqəladə vəziyyətindəki inqilablar, bütün imkanlar artıq əlçatandır. Bütün bunların iqlim dəyişikliyi fonunda gələcək nəsillərə necə çatdırılmasının və ancaq faydalar üçün istifadə etməyin yollarını tapmaq əsas məqsədimizdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Monteneqronun sabiq müdafiə naziri Miliça Peyanoviç-Durisiç "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı çərçivəsində təşkil edilən "Elm, texnologiya və innovasiyanın rolu" mövzusunda panel müzakirələrində çıxışında deyib.

O qeyd edib ki, COP29 yeni biologiya, İKT və süni intellekt sahələrinin geniş əhatə olunacağı və müzakirə ediləcəyi məkan olmalıdır.

Ötən gün COP29-la bağlı bir sıra vacib məsələlərin müzakirə olunduğunu deyən Miliça Peyanoviç-Durisiç bildirib ki, bu gün İKT, elm, texnologiya və innovasiyanın rolu mövzuları diqqət mərkəzində olacaq.

**AZƏRTAC**
**2024, 20 iyun**